**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**31 mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar**

# B Ə Y A N A T I

Son iki yüz ildə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı məqsədyönlü soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının tarixinə ağrılı səhifələr kimi daxil olmuşdur. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq idi. Bəzi dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti gerçəkləşdirmək üçün müəyyən tarixi dövrlərdə təşkilatı, ideoloji və hərbi xarakterli tədbirlər həyata keçirilmiş, müxtəlif vasitələrdən istifadə edilmişdir.

Rusiya və İran arasında bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra Azərbaycanın parçalanması prosesi başlanmışdır. 1828-ci ildə Azərbaycan torpaqları İran və Rusiya arasında bölüşdürüldükdən sonra, ermənilərə muxtariyyət vəd edilmiş, onlar müxtəlif ölkələrdən, xüsusən də İran və Türkiyədən köçürülərək Azərbaycanın Qərb torpaqlarında yerləşdirilmişlər. On minlərlə erməni tarixi Azərbaycan torpaqları olan İrəvan quberniyasında, Naxçıvanda, Qarabağda, habelə digər bölgələrdə məskunlaşdırılmışdır. 1828-1830-cu illərdə Azərbaycan əhalisinin etnik tərkibi məqsədli şəkildə ermənilərin xeyrinə dəyişdirilmişdir.

Ötən əsrin əvvəllərində xalqımıza qarşı yürüdülən bu siyasət nəticəsində azərbaycanlılar öz əzəli torpaqları olan İrəvan, Göyçə və Zəngəzuru itirmişlər. İyirminci əsrin sonunda isə erməni işğalçıları Dağlıq Qarabağı və ətraf yeddi rayonu - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayılı zəbt etmişlər.

Azərbaycan əhalisi dörd dəfə (1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə) erməni millətçiləri tərəfindən insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulması hallarına, qeyri-insani rəftarla, insan ləyaqətini alçaldan hərəkətlərlə müşayiət olunan etnik təmizləməyə və deportasiyaya məruz qalmışdır.

1918-ci ilin mart qırğınları xalqımıza qarşı zaman-zaman həyata keçirilən soyqırım siyasətinin ən dəhşətli təzahürlərindən biri olmuşdur. Erməni daşnakları üç gün ərzində Bakıda 12 min azərbaycanlının həyatına son qoymuş, qocaları, qadınları və uşaqları amansızcasına qətlə yetirmiş, qiymətli tarixi abidələri məhv etmişlər. Qubada, Xaçmazda, Şamaxıda, Lənkəranda və digər bölgələrdə də bu cür faciələr törədilmişdir.

1918-1920-ci illərdə Azərbaycanın yüzlərlə şəhər və kəndi, o cümlədən Qarabağın dağlıq və dağətəyi hissəsində azərbaycanlıların yaşadığı 150-yə yaxın kənd xarabalığa çevrilmiş, 50 mindən çox soydaşımız qətlə yetirilmişdir.

Erməni şovinistləri azərbaycanlıların öz tarixi torpaqlarından qovulmasına sovet dövründə də nail olmuşlar. Belə ki, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin qərarı ilə 150 min azərbaycanlı Ermənistan SSR ərazisindən deportasiya edilərək, Azərbaycanın Kür-Araz ətrafı bölgələrinə köçürülmüşdür.

1988-ci ildə Ermənistan SSR Ali Soveti «Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında»" hüquqazidd qərar qəbul etdikdən sonra erməni silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, 10 minlərlə insan kütləvi qırğınların qurbanı olmuş, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, yüzlərlə yaşayış məntəqəsi dağıdılmışdır.

Ermənilər "soyqırımı" saxtakarlıqlarını artıq bütöv bir sistemə çevirməyə cəhd göstərirlər. Bu proses xüsusi işlənib hazırlanmış, beynəlxalq müstəviyə çıxarılmış, ermənilər tərəfindən, eyni zamanda ermənilərin özlərindən daha böyük güclərin istifadə etdiyi mexanizmdir ki ardıcıl olaraq buna müraciət olunur. Xalqımızın tarixi kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələrimiz, toponimlərimiz erməni tarixçilərinin təcavüzünə məruz qalmış, təhsil və səhiyyə obyektlərimiz yerlə yeksan edilmişdir. Ermənistan tərəfi millətçiliyi və şovinizmi, etnik təmizləmə ideologiyasını əsas tutaraq, terrorçu təşkilatlar yaratmış, erməni lobbisinin imkanlarını bu məqsədlərə yönəltmişdir.

Məlum olduğu kimi, ötən il 1918-ci ilin mart- may aylarında Qubada ermənilərin xüsusi qəddarlıqla törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar üzə çıxarılmışdır. Tikinti ilə əlaqədar qazıntı işləri aparıldığı zaman iki iri quyuda tapılmış saysız-hesabsız insan sümükləri erməni vandalizmini təsdiqləyən əyani nümunələr, faktlardır. Artıq bunların 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya basqını zamanı qəddarlıqla qətlə yetirilmiş yerli sakinlərə məxsus olduğu müəyyən edilmişdir. Tarixi olayların aşkar olunmasında Quba məzarlığı ilə bağlı üzə çıxmış həqiqətləri dünya ictimaiyyətinin nəzərinə çatdırmaq son dərəcə önəmlidir. Bu faktlar uydurma "erməni soyqırımı" əfsanəsini bir daha ifşa edərək yeni tarixin ermənilər tərəfindən saxtalaşdırılmasını sübut edir.

Beynəlxalq hüquqa görə, soyqırım ən ağır beynəlxalq cinayət olmaqla, təcavüz, insanlıq əleyhinə, müharibə və beynəlxalq terrorizm kimi sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir.

Soyqırım cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş «Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyaya görə, soyqırım hər hansı milli, etnik, irqi yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən hərəkətlərdir. Soyqırım və insanlıq əleyhinə cinayətin tərkibini təşkil edən və bu sənəddə göstərilən əməllərdən hər biri ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmişdir.

Azərbaycanlılara qarşı soyqırımı siyasəti erməni millətçiləri tərəfindən uzun illər boyu planlı və məqsədyönlü surətdə həyata keçirilib. Halbuki beynəlxalq hüquq normalarına, BMT-nin və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının ərazi bütövlüyü, qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ də yerinə yetirmir. Xalqımıza qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri beynəlxalq səviyyədə öz siyasi-hüquqi qiymətini almamış bu qanlı soyqırımı tarixin açılmamış səhifələrindəndir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci tarixli Fərmanında bu hadisələrə siyasi qiymət verilmiş və ilk dəfə olaraq azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qaldıqları rəsmi surətdə bəyan edilmişdir. 1998-ci ildən etibarən 31 mart Azərbaycanlıların soyqırımı günü kimi hər il dövlət səviyyəsində qeyd edilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə bu günlərdə Azərbaycan xalqına müraciətində göstərilir: "...Xalqımızın vətənpərvərliyi, birliyi və həmrəyliyi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində qarşımıza qoyduğumuz bütün məqsədlərə, o cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanların ifşasına nail olacağıq".

Həqiqətdən kənar, saxta sənədlərdə guya soyqırıma məruz qaldıqlarını sübuta yetirməyə çalışan işğalçı Ermənistanın törətdiyi əməllərə dünya birliyi tərəfindən layiq olduğu qiymət verilməlidir.

1918-ci il Mart soyqırımından 90 il keçir, lakin erməni millətçilərinin törətdikləri bu dəhşətləri unutmaq qeyri-mümkündür. Beynəlxalq terrorizmə qarşı mübarizəni qarşısına məqsəd qoyan dünya ictimaiyyəti, nəhayət, Azərbaycan xalqının başına gətirilən bu zorakılıqlara obyektiv siyasi hüquqi qiymət verməli, cinayətkarlar öz layiqli cəzasını almalıdır.

Ümid edirəm ki, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləyəcək, ədalət tezliklə öz yerini tapacaq, soyqırımı dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistan dövlətinə qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunacaqdır. İnanırıq ki, Siz Azərbaycan torpaqlarında sülhün və əmin-amanlığın, Azərbaycan xalqının pozulmuş hüquq və azadlıqlarının bərpa edilməsində bütün imkanlarınızı səfərbər etməklə yardımçı olacaqsınız.

**Elmira Süleymanova**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)
29 mart 2008-ci il

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, ATƏT-ə, Avropa Şurasına, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə və Azərbaycan diaspor təşkilatlarına göndərilmişdir.